

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 233 (21.643)

*7 dekabr 2016-cı il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib.

Görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları, Daxili İşlər nazirlikləri arasında uğurla inkişaf etdiyi bildirilib, bu sahədə əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi qeyd olunub.

Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsev ölkələrimizin daxili işlər orqanları arasında əməkdaşlığa göstərdiyi diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib. Azərbaycan-Rusiya-İran prezidentlərinin birinci Bakı Sammitinə toxunan Vladimir Kolokoltsev Sammitdə dövlət başçıları tərəfindən imzalanan Bəyannamənin qarşılıqlı faydalı əməkdaşlıq və birgə fəaliyyətlə bağlı məsələlərin müzakirəsi zamanı əlaqələrin inkişafı üçün əlavə stimul yaratdığını deyib.

Azərbaycan-Rusiya-İran prezidentlərinin birinci Bakı Sammitinin əhəmiyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyev bu formatın artıq formalaşdığını və bunun həmçinin regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi işinə istiqamətləndiyini deyib.



## “Əlincəqala” şeir, poema, pyes kitabının və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin internet saytının təqdimatı olmuşdur




***Dekabrın 6-da AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq nəfis tərtibatla çap olunmuş “Əlincəqala” şeir, poema, pyes kitabının və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin internet saytının (elinceqala.naxcivan.az) təqdimatı olmuşdur.***





Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd etmişdir ki, muxtar respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələri bu gün tariximizin daş yaddaşı kimi qorunur, onların bərpası diqqət mərkəzində saxlanılır. Son 20 ildə muxtar respublikada 70-ə yaxın tarix və mədəniyyət abidəsi əsaslı təmir və bərpa edilmiş, 1200-dən çox dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Həmin abidələrdən Azərbaycan xalqının əyilməzlik simvolu olan Əlincə qalasının bərpa edilməsi və yenidən ölkəmizə qazandırılması çox mühüm tarixi hadisədir. Bu gün təqdimatına toplaşdığımız “Əlincəqala” şeir, poema, pyes kitabı və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin internet saytı bərpa edilən tarixi abidə haqqında əsərlərin, məlumatların daha geniş kütləyə çatdırılmasına xidmət edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov bildirmişdir ki, son vaxtlar muxtar respublikamızda tarixi abidələr dövlət qayğısı ilə əhatə olunmuş, onların pasportlaşdırılması, bərpası, tədqiqi və təbliği sahəsində ardıcıl tədbirlər görülür. Belə abidələrdən biri də Əlincəqaladır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr tarixli Sərəncamına əsasən, muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri qeydə alınıb pasportlaşdırılarkən Əlincəqala haqqında da məlumatlar toplanmış və bu abidə 2007-ci ildə dünya əhəmiyyətli abidələrin siyahısına daxil edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” 11 fevral 2014-cü il tarixli Sərəncamına əsasən isə Əlincəqalada bərpa işləri aparılaraq möhtəşəmliyi özünə qaytarılmış, burada “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyi yaradılmışdır.

“Yazılı mənbələrdə ilk dəfə “Kitabi-Dədə Qorqud” dastanında xatırlanan Əlincəqala Azərbaycan xalqının əyilməzlik və mübarizlik rəmzi kimi böyük şöhrət qazanmışdır”, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri diqqətə çatdırmışdır ki, Əlincəqalanın iki min ildən artıq tarixi vardır. Qala I-VI əsrlərdə yerli hökmdarların əsas iqamətgahlarından biri olmuş, qala-şəhər kimi formalaşmışdır. 14 il Əmir Teymurun qoşunlarına müqavimət göstərən qala şair və yazıçıların ilham qaynağı olmuş, qalanın möhtəşəmliyi, qəhrəmanlığı, tarixiliyi haqqında müxtəlif əsərlər yazılmışdır. Bu gün təqdimatına toplaşdığımız “Əlincəqala” şeir, poema, pyes kitabı da yazıçıların Əlincəqalaya həsr etdikləri əsərlərin toplusundan ibarətdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Tədbirlər Planına əsasən, nəfis tərtibatda hazırlanan kitabda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” Sərəncamı və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin açılışı zamanı etdiyi dərin məzmunlu çıxışı, tədbirdən çəkilmiş fotoşəkillər, Əlincəqalaya həsr olunmuş 31 şeir, 4 poema və 1 pyes, eləcə də Əlincəqala ilə bağlı 31 fotoşəkil və 11 rəsm əsərinin fotosu verilmişdir.

Qeyd olunmuşdur ki, kitabla yanaşı, təqdimatına toplaşdığımız “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin internet saytı da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında hazırlanmışdır. Xüsusi tərtibatla hazırlanan saytda Əlincəqalanın tarixi, Əlincəqala haqqında yazılan məqalələr, bədii ədəbiyyat nümunələri, qalada bərpa proseslərini və bərpadan sonrakı görüntüləri əks etdirən şəkillər və videomateriallar yerləşdirilmişdir. Bununla yanaşı, saytda “Virtual səyahət” vasitəsilə istifadəçilər muzey də daxil olmaqla, bütövlükdə, qala-abidəyə virtual səyahət edə biləcəklər. İnternet saytının istifadəyə verilməsi Əlincəqalanın təbliğində mühüm rol oynayacaqdır.

Naxçıvan Muxtar Respublikasının tarix-mədəniyyət abidələrinin özlərinin ikinci həyatını yaşadığını vurğulayan Rəhman Məmmədov bildirmişdir ki, həmin abidələr heç vaxt indiki qədər diqqət və qayğı ilə əhatə olunmamış, xalqımıza tanıdılmamış, təbliğ edilməmişdir. Bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tarixi-mədəni irsimizə göstərdiyi diqqət və qayğının ən yüksək ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri “Əlincəqala” şeir, poema, pyes kitabının nəşri və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin internet saytının istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, yaradıcı ziyalılara uğurlar arzulamışdır.

Sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü, şair Asim Yadigar, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, şair Elxan Məmmədov çıxış etmişlər.

Çıxışlarda bildirilmişdir ki, qalaları, tarixi abidələri bərpa etmək keçmişi qorumaq, vətənpərvərlik əzmini yaşatmaq və zəngin mədəniyyətimizi, qəhrəmanlıqla dolu tariximizi təbliğ etmək, dünyada tanıtmaq, ən əsası isə gələcək nəsillərə miras qoymaq deməkdir. Bu mənada, “Əlincəqala” şeir, poema, pyes kitabının çap edilməsi və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin internet saytının yaradılması böyük əhəmiyyət kəsb etməklə yanaşı, həm də Naxçıvan mədəniyyəti üçün əlamətdar bir hadisədir. Çıxış edənlər Naxçıvanın mədəniyyət tarixinə verilən bu dəyərli töhfələrə və ümumilikdə, tariximizə, mədəniyyətimizə göstərdiyi diqqət və qayğıya görə muxtar respublikanın elm və mədəniyyət ictimaiyyəti adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlıqlarını bildirmişlər.

Sonda topluda əsərləri yer alan müəlliflərə “Əlincəqala” şeir, poema, pyes kitabı təqdim edilmişdir.

✍ **Rauf ƏLİYEV**

## Səyyari xidmət fəaliyyətini genişləndirir

***Son illər muxtar respublikada hər bir sahədə olduğu kimi, dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsi istiqamətində də xeyli işlər görülüb.***

2015-ci ildə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yeni yaradılan səyyari xidmət insanlara daha bir qayğının ifadəsidir. Səyyari xidmət üçün nazirliyə “Hyundai” markalı avtomobil alınıb. Avtomobil xidmət sahələrinə uyğun olaraq, səyyari xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilib.

Səyyari xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə hüquqi xidmətlər göstərilir. Avtomobildə quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportlarının, şəxsiyyət və sürücülük vəsiqələrinin yerlərdə vətəndaşlara təqdim olunmasına imkan verib.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyindən aldığımız məlumata görə, 2015-ci il ərzində səyyari xidmətə 6320 müraciət olub. Onlardan 5123-ü şəxsiyyət vəsiqəsi, 1155-i sürücülük vəsiqəsi, 29-u ümumvətəndaş pasportu, 2-si ov silahlarının qeydə alınması, 11-i məhkumluq arayışı almaq üçün müraciətlərdir.

Cari ildə də səyyari xidmət fəaliyyətini davam etdirir. Noyabr ayında Şərur rayonunun Xanlıqlar, Tumaslı, Yengicə, Püsyan, Çomaxtur, Qorçulu, Ordubad rayonunun Yuxarı Əndəmic, Düylün, Vənənd, Baş Dizə, Aza, Culfa rayonunun Yaycı, Əbrəqunus, Kırna, Milax, Göydərə, Babək rayonunun Nehrəm, Qahab, Sirab, Kültəpə, Yarımca kəndlərində və Sədərək rayonunun Heydərabad qəsəbəsində xidmət tərəfindən 420 şəxsiyyət vəsiqəsi, 118 sürücülük vəsiqəsi, 1 məhkumluq haqqında arayış verilib.

Bu gün Babək rayonunun Məzrə kəndində əhaliyə səyyari xidmət göstərilir.

✍ **Muxtar MƏMMƏDOV**



**Ulu öndər Heydər ƏLİYEV:** ***Hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməlidir, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir.***

## Azərbaycanın özü qədər əbədi

# Demokratik, hüquqi dövlətin banisi

***Azərbaycanın müasir tarixi ulu öndər Heydər Əliyevin adı, onun xilaskarlıq və quruculuq missiyası ilə sıx bağlıdır. Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin 1993-2003-cü illəri Azərbaycanı daim müstəqil, azad, demokratik ölkə kimi görmək istəyən dahi şəxsiyyətin öz məqsədlərini uğurla həyata keçirdiyi illərin unudulmaz səhifələridir. Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğunun təhlükə qarşısında qaldığı bir dövrdə xilaskarlıq missiyasını öz üzərinə götürən, yeni, demokratik və qüdrətli Azərbaycan dövlətini yaratmaq üçün böyük quruculuq missiyasını həyata keçirən, indiki və gələcək nəsillərə yadigar olaraq Azərbaycanın gələcək inkişafının strateji konsepsiyasını işləyib hazırlayan Heydər Əliyevin dühası və siyasi irsi dövlətimizin müstəqillik məfkurəsinin möhkəmlənməsinə müstəsna töhfələr vermişdir.***

Məlum olduğu kimi, XX əsrin sonlarında Azərbaycan Respublikası müstəqil dövlət olaraq demokratik, hüquqi dövlət quruculuğu yolunu seçdiyini bəyan etsə də, mürəkkəb ictimai-siyasi vəziyyətdə müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ilin 15 iyununda hakimiyyətə qayıdışı ilə ölkəmiz müstəqil dövlət kimi varlığını qoruyub saxlaya bilmiş, ölkənin tarixi ənənələri ilə müasirliyin uğurlu vəhdəti əsasında demokratik dəyərlərə söykənən yeni inkişaf strategiyasının əsası qoyulmuşdur.

Dahi rəhbərin hakimiyyətə qayıdışından sonra 1993-cü il ölkədə sabitlik və inkişaf ilinin başlanğıcı kimi tarixə düşməklə, hüquqi islahatların, qanunvericiliyin, iqtisadi, sosial sistemlərin sürətlə dəyişən şəraitə uyğunlaşdırılmasına yol açmış, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda inamlı addımlar atan Azərbaycan Respublikasında cəmiyyətin təkamül sistemini, dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların müasirləşdirilməsi və təkmilləşdirilməsi davamlı prosesə çevrilmişdir. Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanın memarı olmaqla gerçəkləşdirmişdir. 12 noyabr 1995-ci ildə keçirilən ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edilmişdir. ***“Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsaslar yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir”***, – deyən ümummilli lider bununla Konstitusiyanın başlıca hədəflərini müəyyən etmişdir.

Ümummilli liderin müəllifi olduğu yeni Konstitusiya dövlət quruculuğu sahəsində fundamental islahatlara yol açmış, Azərbaycan Respublikasında hüquqi dövlət ideyasının formalaşmasında mühüm təkan olmuşdur. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini yaratmışdır. Bununla da, Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər öz əksini tapmışdır.

Ulu öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə gənc, müstəqil respublikamızın dövlət suverenliyinin, iqtisadi qüdrətinin möhkəmləndirilməsi, ölkədə vətəndaş cəmiyyətinin qurulması və inkişaf etdirilməsi məqsədilə geniş islahatlar həyata keçirilməyə başlanılmışdır. Konstitusiyamıza əsaslanaraq mükəmməl hüquq sistemi formalaşdırmaq üçün ulu öndər qabaqcıl beynəlxalq təcrübəni, ümumbəşəri demokratik prinsipləri rəhbər tutmaqla Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri əsasında islahatlar aparmağa başlamış və bu məqsədlə 1996-cı ildə Hüquqi İslahat Komissiyasını yaratmışdır. Qeyd olunmalıdır ki, müasir hüquqi islahatlara böyük əhəmiyyət verən ümummilli liderimiz Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürmüş və bu mütərəqqi prosesə şəxsən nəzarət etmişdir. Təsadüfi deyil ki, qısa zamanda beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilən, insan hüquqlarının daha etibarlı təminatına xidmət edən, müasir tələblərə cavab verən “Məhkəmələr və hakimlər haqqında”, “Konstitusiya Məhkəməsi haqqında”, “Prokurorluq haqqında”, “Polis haqqında”, “Notariat haqqında” və sair qanunlar, Mülki, Mülki prosessual, Cinayət, Cinayət-prosessual, Vergi, Ailə, Əmək və sair məcəllələr hazırlanaraq qəbul edilmişdir.

Azərbaycan üçün demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş ümummilli liderimiz ölkəmizdə müstəqil məhkəmə hakimiyyətinin formalaşmasına xüsusi diqqət yetirirdi. Bu baxımdan ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə məhkəmə quruluşunun və məhkəmə icraatının mahiyyətcə yeni modelinin yaradılması prosesinə başlanılmışdır. Dahi öndərin rəhbərliyi ilə aparılmış köklü məhkəmə-hüquq islahatları nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək 2000-ci ildən yeni, üçpilləli müstəqil məhkəmə sistemi yaradılmışdır.

1998-ci il iyulun 14-dən fəaliyyətə başlayan Konstitusiya Məhkəməsi ölkədə Konstitusiya nəzarətini həyata keçirməklə insan hüquq və azadlıqlarına dair Konstitusiya müddəalarının düzgün başa düşülməsini, həmin konstitusion normaların tətbiqinə mane olan normativ-hüquqi aktların qüvvədən düşməsini və beləliklə, insan hüquq və azadlıqlarının realizə edilməsi üçün şəraitin yaradılmasını təmin etmişdir.

Həyata keçirilən məhkəmə-hüquq islahatlarının başlıca məqsədi Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, cinayət və mülki mühakimə icraatı zamanı demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər məsələlərin konseptual həlli olmuşdur.

İdarəçilikdə humanizm prinsiplərini daim rəhbər tutan görkəmli dövlət xadimi Heydər Əliyev demokratik və sivil cəmiyyətin qurulmasının fundamental əsaslarından olan qanunun aliliyinin təmin edilməsinə də xüsusi önəm vermiş, bu kontekstdə hakimiyyət bölgüsünü xarakterizə edən islahatların həyata keçirilməsi istiqamətində konkret addımlar atmış, verdiyi fərmanlar və imzaladığı digər hüquqi sənədlərlə mülki cəmiyyətin formalaşmasında mühüm nailiyyətlər əldə olunmasını təmin etmiş, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. Ulu öndər Heydər Əliyevin 1998-ci il fevral ayının 22-də imzaladığı “İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanla insan hüquqlarının təminatı istiqamətində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyən edilmiş, bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. Bundan başqa, insan hüquqlarının müdafiəsi işində ulu öndərin 1998-ci il iyunun 18-də imzaladığı Sərəncamla təsdiq edilmiş “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” da mühüm rol oynamışdır.

İnsan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində atılmış mühüm addımlardan biri də ölüm cəzasının ləğvi olmuşdur. Belə ki, 1993-cü ildə ölüm cəzası üzərində moratorium qoyulmuş, 1995-ci ildə əfvetmə institutu bərpa edilməklə əfv komissiyası yaradılmış, 10 fevral 1998-ci il tarixdə ölüm cəzası tam ləğv edilmişdir. ***“Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm”***, – deyən ulu öndər Azərbaycan Respublikasının humanist siyasət aparan bir dövlət olduğunu sübut etmişdir.

Qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan hüquqi islahatlar ciddi konsepsiyaya söykənirdi və onun əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, eyni zamanda Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanırdı. 28 dekabr 2001-ci ildə “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya Qanununun qəbul edilməsi, ilk dəfə olaraq Ombudsman təsisatının yaradılması, həmçinin “Bələdiyyələrə seçkilər haqqında”, “Bələdiyyələrin statusu haqqında” qanunların qəbulu və 1999-cu ilin dekabr ayında Azərbaycan Respublikasında ilk bələdiyyə seçkilərinin keçirilməsi ulu öndərin hüquqi dövlət quruculuğunun inkişafında həyata keçirdiyi uğurlu islahatların bariz göstəricisidir.

Xarici siyasət məsələlərinə xüsusi diqqət yetirən xalqımızın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycanın 1996-cı ildən Avropa məkanına inteqrasiya prosesi sürətlənmiş, nəticədə, Avropa Şurası Parlament Assambleyasının qərarı ilə respublikamıza 1996-cı il iyunun 28-dən həmin təşkilatda “xüsusi qonaq statusu” ilə təmsil olunmaq imkanı yaradılmış, 2001-ci il yanvarın 17-də qurumun Nazirlər Komitəsinin qərarı ilə dövlətimiz Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul olunmuşdur. 2001-ci il dekabrın 25-də Azərbaycan Respublikasının Milli Məclisi “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasını ratifikasiya etmişdir.

Hüquqi dövlət quruculuğunun Azərbaycan modelini yaratmış ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu məhkəmə-hüquq islahatları bu gün də uğurla davam etdirilir. Məhkəmə-hüquq islahatlarının məntiqi davamı kimi ölkə Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə” 19 yanvar 2006-cı il tarixli Fərmanı, eləcə də 6 fevral 2009-cu il tarixli “Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı” qəbul edilmişdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və ölkə başçısı cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə aparılan, vətəndaşların hüquq və azadlıqlarının ədalət mühakiməsi yolu ilə qorunması prinsiplərinin inkişafına xidmət göstərən məhkəmə-hüquq islahatları Azərbaycanın bütün regionlarını əhatə etməkdədir. Naxçıvan Muxtar Respublikasında bütün məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında yuxarıda qeyd edilən qanunvericilik aktları ilə yanaşı, “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanının müstəsna rolu vardır. Fərmanın qəbulundan sonra ötən illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında muxtar respublikada hüquq institutlarının inkişafı, hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətinin müasir tələblər nəzərə alınmaqla təşkil olunması, eləcə də onların maddi-texniki bazasının daha da möhkəmləndirilməsi sahəsində mühüm işlər görülmüş, dövlət orqanlarının, o cümlədən məhkəmə orqanlarının müasir texniki avadanlıqlarla təchiz olunması, habelə onların fəaliyyətində yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi istiqamətində bir sıra zəruri addımlar atılmışdır.

Ulu öndərin qurub-yaratdığı, müstəqilliyə qovuşdurduğu Azərbaycan hazırda ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edir, qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir. Respublikamız ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi inkişaf kursu keçməklə demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində ciddi nailiyyətlərə imza atır.

*Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsidir. Bu mərhələ Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi olaraq həkk olunmuşdur.*

**Yusifəli QURBANOV**
***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi,***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar hüquqşünası***

***Ordubad şəhərinin mərkəzində müasir arxitektura üslubunda inşa olunmuş bir binanın qarşısında dayanıb düşüncələrə dalmışam. Daha dəqiq desəm, xəyallar məni 8-10 il əvvələ aparıb. O vaxt Ordubad Şəhər Uşaq Musiqi Məktəbi uyğunlaşdırılmış binada fəaliyyət göstərirdi. Mən də həmin məktəbdə təhsil alırdım. 2009-cu ildə indi qarşısında dayandığım bina tikilərək bizim istifadəmizə verildi. Bu gün öz uğurları ilə ölkə səviyyəsində tanınan Ordubad Şəhər Uşaq Musiqi Məktəbi müasir standartlara cavab verən, hər cür şəraitlə təmin olunmuş binada öz fəaliyyətini davam etdirir. Keçmişdəki kiçik, soyuq sinif otaqları bu gün öz yerini geniş və işıqlı, istilik sistemi ilə təmin olunmuş otaqlara, siniflərdəki köhnə alətlər isə yeni musiqi alətlərinə verib.***



# Nəğməli keçən 50 il

Xatirimdədir, məktəbin fəaliyyət göstərdiyi köhnə binada qış fəslində çətinliklə, əllərimiz üşüyə-üşüyə birtəhər dərs keçməyə çalışardıq. İndi uşaqlar fəsildən asılı olmayaraq, hər zaman sinif otaqlarında rahat şəkildə dərslərini keçə bilirlər. Köhnə binada olan şəraitsizlik uşaqlar qədər müəllimləri də narahat edirdi. Yeddiillik musiqi təhsilimin 6 ilini məktəbin köhnə binasında, sonuncu ilini isə bu binada aldım. Keçmişə nəzər saldıqdan sonra xəyallardan ayrılıb məktəbə doğru addımlayıram. İçəridən eşidilən musiqi nömrəsi məni yenə əvvəlki günlərə qaytarır. Bu, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilovun xor üçün işlədiyi "Güləbətin" adlı xalq mahnısıdır. 2007-ci ildən bu yana xeyli zaman keçsə belə, hələ də bu əsər yaddaşımdadı. Oxucuların nəzərinə çatdırım ki, 2007-ci ildə Ordubad Şəhər Uşaq Musiqi Məktəbi uşaq musiqi və incəsənət məktəbləri xor kollektivlərinin beşinci respublika müsabiqəsində Naxçıvan Muxtar Respublikasını təmsil etmək hüququ qazanaraq Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ikincidərəcəli diplomu ilə təltif olunmuşdu. Həmin musiqi nömrəsi məktəbin xor kollektivinin bu gün də repertuarındadır...

1965-ci ildən Naxçıvan şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbinin filialı kimi yaradılan Ordubad Şəhər Uşaq Musiqi Məktəbi bir ildən sonra, 1966-cı ildən müstəqil məktəb kimi fəaliyyətini davam etdirir. İlk dövrlərdə məktəbdə 3 ixtisas – tar, klarnet, fortepiano üzrə, ümumilikdə, 60 şagirdlə 4 müəllim məşğul olub. Daha sonra burada nağara, kamança, skripka, qarmon, vokal və digər ixtisaslar üzrə də dərslər tədris edilməyə başlanıb. Yeni tədris ilindən məktəbdə saz sinfi də fəaliyyət göstərir.

Hazırda məktəbdə 10 ixtisas üzrə 318 şagirdin estetik tərbiyəsi ilə 76 ixtisas müəllimi məşğul olur.

Fəaliyyətə başladığı ildən bu günə qədər məktəbi 1593 məzun bitirib ki, onlardan da 256-sı bu sahədə təhsillərini davam etdirib, ali və orta ixtisas musiqi tədrisi ocaqlarının tələbəsi adını qazanıb. Onu da qeyd edək ki, həmin məzunların əksəriyyəti təhsillərini başa vurduqdan sonra yenidən buraya qayıdaraq məktəbdə müəllim kimi çalışırlar. Demək olar ki, Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin pedaqoji bazasını öz yetirmələri təşkil edir.

Məktəbin uğurları ilbəil artır, müxtəlif ixtisaslarda təhsil alan şagirdlər keçirilən müsabiqələrdə iştirak edir və ilk üçlüyə düşməyə nail olurlar. Məktəbin birincilikdən səsləri gələn şagirdləri də az deyil.

2008-ci ildə bir çox birinciliklərə imza atan məktəb həmin ildə ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş uşaq musiqi, bədii sənətkarlıq və incəsənət məktəbləri şagirdlərinin muxtar respublika müsabiqəsində yekun nəticələrə görə "İlin məktəbi" diplomu ilə təltif olunub. Müsabiqədə məktəbin xalq çalğı alətləri orkestri və xor kollektivi birincidərəcəli, nəfəsli alətlər orkestri isə ikincidərəcəli diploma layiq görülüb. Qalib olan xor kollektivi ikinci dəfə xor kollektivlərinin altıncı respublika müsabiqəsində Naxçıvanı təmsil etmək hüququ qazanıb.

Yaradılan şəraitin müqabilində məktəbin uğurlarının ardı-arası kəsilmir, kollektiv bu etimadı doğrultmaq naminə daha səylə çalışır. Əldə edilən nailiyyətlərdə hər bir şagirdin, müəllimin əməyi var. Bütün şagirdlər müsabiqələrdə hər hansısa bir alətdə solo ifaçı kimi çıxış etməsə belə, düşünəndə ki, bu məktəbin 6 kollektivi – xor, xalq çalğı alətləri və estrada orkestrləri, qarmonçalanlar, skripkaçalanlar və nağaraçalanlar ansamblları var, deməli, həmin şagirdlər hökmən bu kollektivlərin birində iştirak edir. Sözsüz ki, müəllimlər həmin şagirdlərin yetişməsində mühüm rol oynayan simalardır. Məktəbin müəllimi, xormeyster Səbinə İbrahimova deyir:

– Ümumilikdə götürəndə incəsənətlə məşğul olmaq asan iş deyil, xüsusilə də musiqi ilə, lakin seçdiyiniz sənətə sevgi, həvəs olduqdan sonra bir də baxırsan ki, bacarmaram dediyinin öhdəsindən gəlmisən, həm də ən yaxşı şəkildə. Xor kollektivinə rəhbərlik etdiyim ilk zamanlarda bəzi çətinliklərlə üzləşirdim. Bunlara uşaqların xorun mahiyyətini anlamamağını, səhnə həyəcanını misal göstərə bilərəm. Zaman keçdikcə şagirdlərdən istədiyim nəticələri almağa başladım. Bunun öhdəsindən tək gələ bilməzdim, çünki o qədər uşağı tək idarə etmək heç də asan iş deyil. Bu işdə həmin şagirdlərin ixtisas müəllimləri mənə yaxından köməklik edirdilər. Onlar dərs saatından sonra şagirdlərinə əlavə vaxt ayıraraq xor partiyalarını öyrədirdilər. Bu da mənim işimi xeyli asanlaşdırırdı. Biz keçirilən müsabiqələrdə dəfələrlə yer tutmuşuq, paytaxt Bakıda keçirilən müsabiqələrdə Naxçıvanı təmsil etmək hüququ qazanmışıq. Bundan sonra da var gücümüzlə çalışacaq, bizə göstərilən etimadı doğruldacağıq.

"Qazanılan bütün uğurların açarı çalışmaqdır". Bizimlə söhbətə bu cümləylə başlayan məktəbin direktoru Azər Məmmədov dedi:

– Əlbəttə ki, insan çalışmadan, əziyyət çəkmədən heç nəyə nail ola bilməz. Çəkdiyimiz zəhmətin bəhrəsini görürük. Bunun təməlində duran əsas amil hərtərəfli dövlət qayğısıdır. Buna görə də kollektivimiz məsuliyyətlə çalışır, bizə yaradılan şəraitin müqabilində daha böyük uğurlara imza atmaq üçün səyini əsirgəmir. Məktəbimiz keçirilən müsabiqələrdə dəfələrlə bütün rəqiblərini geridə qoyub. Bu uğurlarda qocaman müəllim Kamal Qəniyevin də payı var. O, xalq çalğı alətləri orkestrinin dirijoru kimi orkestri yüksək səviyyədə müsabiqələrə hazırlayır. Onunla yanaşı, məktəbin 50 illiyi ərəfəsinə 60 illik yubileyi təsadüf edən, əsərlərini hər il müsabiqə proqramına daxil etdiyimiz həmyerlimiz, məktəbimizin yetirməsi olan Yaşar Xəlilov da bu işdə böyük fəallıq göstərir. O, müsabiqələrdə xor və orkestrlərdə yer alan əsərlərinin ifaçısı kimi də çıxış edir.

Azər Məmmədov deyir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 21 oktyabr 2016-cı ildə imzaladığı "Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam bir daha sübut edir ki, bu məktəb muxtar respublika rəhbərinin hərtərəfli diqqət və qayğısı əhatəsindədir.

50 illik yubileyə hazırlığımız öz axarında gedir. Proqrama Azərbaycan bəstəkarları ilə yanaşı, dünya bəstəkarlarının da əsərlərini daxil etmişik. Gələcəkdə kollektivimiz indiyəcən qazandığımız uğurları daha da artırmağa çalışacaq.

Bu gün məktəbdə ab-hava bir başqadır. Axı kollektiv sıradan bir tədbirə, ya da müsabiqəyə yox, təhsil ocağının 50 illik yubileyinə hazırlaşır.

Kollektivlə sağollaşıb, qapını örtüb pilləkənlərə doğru addımlayıram. Qapının arxasından melodiya səsi gəlir. Bu, Qara Qarayevin bəstəsi olan "Böyük xilaskar" kantatasıdır. Çoxdandır bu bəstəkarın əsərlərinə qulaq asmadığımın, onun dəst-xəttinə əməlli-başlı yadırğadığımın fərqinə varır və belə fürsəti əldən verə bilmirəm, bu ifanı dinləmədən məktəblə sağollaşmamalıyam deyə düşünərək ifaya qulaq asıram. Əsər ruhumu necə oxşayırsa, nə vaxt bitdiyindən xəbərim belə olmur. "Heydər xalqım deyəcək, xalq Heydər söyləyəcək". Mahnının sözlərini təkrarlaya-təkrarlaya pilləkənləri enib məktəbin çıxışına yol alıram. İfa hələ də səslənir. Düşünürəm: Bu xalq xilaskarının onun üçün etdiyi fədakarlığı heç vaxt unutmayacaq, Ona hər zaman böyük ehtiram göstərəcək, mahnılar bəstələyib ifa edəcək. Belə müasir məktəblərin yaradılması da ulu öndərimizin yolunun uğurla davam etdirilməsinin nəticəsidir.

✍ **Fatma BABAYEVA**

# Qədim Sədərək tarixdə neçə dəfə rayon statusunda olub?

*Hər dəfə bu günü ilə yaxın keçmişini müqayisə edəndə Sədərəyin dosta sevinc, düşmənə isə gözdağına çevrildiyinə bir daha əmin olursan.*

Sədərək tarixən bölgənin ən mühüm məntəqələrindən biri kimi özünəməxsus inzibati statuslara malik olmuşdur. Bu ərazi XIII-XIV əsrlərdə Naxçıvan tüməninin tərkibində idi. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri dönəmində isə biz Sədərəyin adının Çuxursəd əyalətinin səkkiz hakimliyindən biri kimi çəkildiyini görürük. Sədərək XVI əsr mənbələrində sultanlıq kimi göstərilir. Fransız səyyahı J.Şarden də təsdiqləyir ki, bu dövrdə Sədərək ayrıca bir hakimlik – sultanlıq olmuşdur. Şarden yazır: "Çox düzən və barlı-bəhərli bir ölkə ilə beş lyö getdik. O, dağlarla əhatə olunmuşdu. Sağdakı dağları Nuh dağı adlandırırlar. Biz Qaynar adlı kiçik bir şəhərdə mənzil saldıq. Biz həmin yolla gedib səkkiz lyö qət etdik. Yolun yarısında, sol tərəfdə Sədərək adlı şəhərciyin yanından ötüb keçdik. Mahalın sultanı da bu şəhərcikdə yaşayır".

Qeyd edək ki, Səfəvilər dövründə daha kiçik inzibati vahidlərin hakimləri sultan titulunu daşıyır və onlar yerli hakimiyyət orqanlarını müstəqil surətdə yaradırdılar. Sultanlar müvafiq vilayətin qolbəyilərinə və bəzən birbaşa bəylərbəyisinə tabe idilər. XVIII əsrin əvvəllərində də Naxçıvan türnəni, Maku, Zaruzəbil, Şadili, Dünbülü, Mağzaberd hakimlikləri kimi Sədərək hakimliyi də Çuxursəd bəylərbəyliyinin tabeliyində olmuşdur.

1728-ci ilə aid "İrəvan əyalətinin icmal dəftəri"ndəki məlumatlardan aydın olur ki, bu zaman Sədərək nahiyəsinə 24 yaşayış məntəqəsi daxil idi.

Nadir şah Əfşarın dövründə Sədərək Naxçıvan ölkəsinin 11 mahalından biri olmuşdur.

Çoxumuz üçün Sədərəyin rayon kimi tarixi 28 avqust 1990-cı ildən başlayır. Lakin bu yaxınlarda tədqiqata cəlb etdiyimiz bir sənəd sübut edir ki, Sədərəyin rayon kimi tarixi XX əsrin əvvəllərinə, konkret olaraq desək, hələ 1921-ci ilə təsadüf edir. Naxçıvan Dövlət Arxivində mühafizə olunan və surəti AMEA Naxçıvan Bölməsinin elmi arxivində fond 8, siyahı 4, arxiv 5-də saxlanılan "Naxçıvan MSSR-in inzibati-ərazi bölgüsünün sxemi" adlı 16 mart 1921-ci il tarixli sənəddə Naxçıvan ərazisində o zaman üçün 3 qəza (Naxçıvan, Şərur və Ordubad) və 9 rayonun adı çəkilir ki, bu rayonlardan biri də məhz Sədərəkdir. Qeyd edək ki, sənəd Baş Ştab Akademiyasının dinləyicisi M.Pereşin tərəfindən Azərbaycan SSR-in fövqəladə komissarına və Naxçıvan SSR-in xalq hərbi komissarına məruzə şəklində hazırlanmışdır. Sənəddə Naxçıvan qəzasının tərkibində Tumbul, Cəhri və Şahbuz rayonlarının, Ordubad qəzasının tərkibində Yaycı, Əbrəqunus və Çənənəb rayonlarının, Şərur rayonunun tərkibində isə Baş Noraşen (Cəlilkənd), Şahtaxtı və Sədərək rayonlarının olduğu göstərilir. Sənəddə verilən məlumatlardan aydın olur ki, o zaman yaradılmış Sədərək rayonu bugünkü Sədərək rayonuna nisbətən daha geniş əraziləri əhatə etmiş və sonralar əsassız olaraq Ermənistan SSR-ə verilmiş bir sıra yaşayış məntəqələri də məhz bu rayonun tərkibinə daxil olmuşdur. Məruzənin "Naxçıvan SSR-in şəhər və kəndləri: yerləşdikləri qəza və rayonlar üzrə" adlı hissəsində ozamankı Sədərək rayonunun tərkibində 37 yaşayış məntəqəsinin adı çəkilmişdir ki, bu yaşayış məntəqələri aşağıdakılardır: Sədərək, Kürkənd, Qaraburc, Maxta, Ortulu Təzəkənd, Kərimbəyli, Quşçu-Dəmirli, Saraclu, Volçovarotskiy (Qurd qapısı) qəsəbəsi, Dəvə-Ölən, Cərarlı-Banut, Günnüt-Cəfərli, Kərki, Arazdəyən stansiyası, Karvansaray, Calavan, Kərxmiz, Kiqayu qışlağı, Yanığ, Qaraburun, Yuxarı Başki, Aşağı Başki, Urmiya, İsfahan, Yaycı, Gümbəz, Ovçarı (Əfşarı), Asnı, Səfərəli-din, Smo, Şərqi, Məngi, Sərxan, İraq qışlağı və Düdəngə.

Qeyd edək ki, bu kəndlərdən Kürkənd, Qaraburc, Maxta, Kərimbəyli, Düdəngə kəndləri bu gün Şərur rayonunun tərkibindədir. Ovçarı (Əfşarı), Ortulu-Təzəkənd, Arazdəyən stansiyasının isə Ermənistan Respublikası ərazisində olduğunu müəyyənləşdirə bildik.

Rayonun yaşayış məntəqələrindən biri kimi qeyd edilmiş Günnüt-Cəfərli toponiminin birinci hissəsi Günnüt bu gün də rayon ərazisində qalmaqdadır. Sədərək rayonu ərazisində bu gün də yaşamaqda olan Günnüt (Küngüt) toponimi, ehtimal ki, monqolların tərkibində Azərbaycana gəlmiş konqorat tayfalarının adı ilə bağlıdır. Qeyd edək ki, bu toponimin monqol mənşəli olması fikrini A.Axundov və A.Bağırov da təsdiqləmişlər. A.Axundov küngüt sözünü monqol və monqolların tərkibində Azərbaycana gələn küngüt türkdilli tayfa adı ilə əlaqələndirmişdir.

Sədərək rayonu ərazisində maraq doğuran yer adlarından biri də "Karvansaray" yer adı olmuşdur. Araşdırmalarımız zamanı müəyyən etdik ki, bu ərazi indiki Sədərək kəndinin cənubunda yerləşmişdir. Tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev İpək Yolu üzərindəki Naxçıvan karvansaraylarından bəhs edərkən Sədərək kəndinin cənubunda bir karvansarayın olduğunu və hətta bu karvansarayın XX əsrin əvvəllərinə qədər fəaliyyət göstərdiyini qeyd etmişdir.

Bütün bunlar göstərir ki, 1990-cı ilin avqustunda Şərur rayonunun bir neçə kəndi hesabına yaradılmış rayonun məhz Sədərək adlandırılması və ayrıca rayon kimi təşkili heç də təsadüfi olmayıb, tarixi ənənələrə dayanmaqdadır. Bu tarixin mükəmməl bilicisi və Sədərəyin yenidən rayon kimi formalaşmasının memarı isə ulu öndər Heydər Əliyev olmuşdur. Ümummilli lider Heydər Əliyev 14 avqust 2002-ci il tarixdə Sədərək rayonunun sakinləri ilə görüşdəki çıxışında demişdir: *"...Sədərək həmişə bizim, Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni bu cür görəndə həddindən artıq sevinirəm. Çünki sizin, yəqin ki, xatirinizdədir, vaxtilə, 1977-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması haqqında qərar verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, bu bizimdir, o bizimdir deyirdilər. Mənim yadımdadır, burada bir Həsənqulu bağı vardı... Guya ki, o bağ onlarındır. Sonra mən 1990-cı ildə buraya gələndə bu məsələlərlə məşğul olmuşam. O vaxt mən bunları hiss edirdim. Ona görə mən belə qərara gəldim ki, burada Azərbaycana Naxçıvan tərəfdən giriş yerində müasirtipli evlər tikək ki, Ermənistanın ərazisindən buraya keçənlər, – yadınızdadırsa, o vaxt gediş-gəliş çox idi, turistlər də gedib-gəlirdi, sovet vaxtı başqaları da gedib-gəlirdi, – onlar görsünlər ki, Azərbaycan torpağında indi yaşayış necədir. Ona görə mən burada o vaxt bu qəsəbəni salmaq barədə göstəriş verdim".*

***Sədərək rayonu bu gün öz inkişafının yeni mərhələsindədir. Son illər rayonda aparılan quruculuq işləri bu bölgəni xeyli gözəlləşdirib. Sədərək indi öz inkişafı ilə düşmənə gözdağına çevrilib.***

✍ **Elnur KƏLBİZADƏ**

# “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016” başa çatıb





***Dekabrın 6-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin təşkilatçılığı ilə keçirilən “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016”nın yekun mərhələsi olub.***

Tədbirin aparıcıları bildiriblər ki, muxtar respublikamızda istedadlı yeniyetmə və gənclərin yaradıcılıq potensialının üzə çıxarılması, inkişaf etdirilməsi, onların müsabiqə və festivallarda fəal iştiraklarının təmin edilməsi istiqamətində məqsədyönlü işlər görülür, müxtəlif layihələr həyata keçirilir. Müsabiqənin də əsas məqsədi xalq mahnı və təsniflərinin ifaçılığı üzrə istedadlı gənclərin aşkara çıxarılması, onların yaradıcılıq potensialının düzgün istiqamətləndirilməsindən ibarət idi.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova deyib ki, Azərbaycan xalqının bədii yaradıcılığının və musiqi mədəniyyətinin zəngin bir hissəsi olan mahnı və təsniflərimiz əsrlərdən bəri cilalana-cilalana dövrümüzə qədər gəlib çatmış nadir sənət nümunələridir. Bu sənət inciləri xalqımızın pak, yüksək mənəviyyatını, daxili aləmini, arzularını, ümidlərini özündə əks etdirərək onun məişəti, zəngin mədəniyyəti ilə bağlı olub və xalqın mədəni inkişafında əvəzsiz rol oynayıb. Xalq mahnılarında, təsniflərdə, eləcə də muğam və aşıq yaradıcılığında xalqımızın müdrikliyini, gələcəyə inamını, məhəbbətini, düşüncə və təfəkkürünü, mübarizə və döyüş ruhunu görmək mümkündür.

Qeyd edilib ki, 2002-ci ilin noyabr ayında YUNESKO tərəfindən Azərbaycan muğamı “Bəşəriyyətin qeyri-maddi mədəni irs reprezentativ siyahısı”na daxil edilib. Ulu öndər Heydər Əliyevin 2003-cü il 16 may tarixdə imzaladığı “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, muğam-dəsgahlar, zərb muğamlar, təsnif və rənglər də qorunan folklor nümunələri siyahısına salınıb. Bu gün Azərbaycanda muğam sənətinin, musiqimizin inkişafına böyük diqqət və qayğı göstərilir.

Naxçıvan Muxtar Respublikasında da xalq musiqisinin, muğam sənətinin yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Sərəncamına əsasən, hər il keçirilən xalq yaradıcılığı günlərində zəngin folklor nümunələri ilə yanaşı, milli musiqimiz, muğamlarımız da səslənir. 2012-ci ilin muxtar respublikamızda “Milli dəyərlər ili” elan edilməsi, həmin il keçirilən “Milli dəyərlərimiz – milli sərvətimiz” folklor və muğam müsabiqəsi yaddaqalan tədbirlərdən biri kimi əlamətdar olub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin təşkilatçılığı ilə bu ilin aprel ayından “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi”nə start verilib.

Müsabiqənin əsasnaməsinə əsasən, təşkilat komitəsi, seçim qrupu və münsiflər heyətinin tərkibləri təsdiq olunub. Bundan başqa, hər bir mərhələnin keçirilməsi üçün müsabiqə iştirakçılarına müəllim və müşayiətçi ansambl ayrılıb. Müsabiqə seçim turu və əsas turdan ibarət olub. Seçim turu bu ilin mart ayında mədəniyyət və incəsənət xadimlərindən ibarət seçim qrupu tərəfindən muxtar respublikanın bütün rayonlarında keçirilib.

Diqqətə çatdırılıb ki, qısa müddət ərzində müsabiqədə iştirak etmək üçün muxtar respublikanın bütün rayonlarından və Naxçıvan şəhərindən, ümumilikdə, 101 nəfər təşkilat komitəsinə ərizə ilə müraciət edib. 10-11 mart tarixlərində keçirilən I seçim turunda iştirak edən 95 nəfərdən 51 nəfəri II seçim turunda, aprel ayında keçirilən II seçim turunda iştirak edən 51 nəfərdən 16 nəfəri əsas turda iştirak etmək hüququ qazanıb. Müsabiqənin gedişi zamanı bir nəfər iştirakçı Bakı şəhərində fəaliyyət göstərən Bülbül adına Orta İxtisas Musiqi Məktəbinə qəbul olunub və növbəti turlarda iştirak edə bilməyib.

Müsabiqənin əsas turu 7 mərhələdə davam etdirilib. Mərhələlər Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında keçirilib. Dördüncü mərhələdən etibarən iştirakçının çıxışına görə münsiflər heyəti tərəfindən aparılmış qiymətləndirmənin nəticəsi olaraq bir nəfər müsabiqədən çıxarılıb. Beləliklə, əsas turun son mərhələsində 9 nəfərin ifası dinlənilib və iştirakçıların birinci mərhələdən sonuncu – yeddinci mərhələyə qədər yekun balları əsasında qalib müəyyənləşib.

Müsabiqə iştirakçılarının ifalarının qiymətləndirilməsi münsiflər heyəti tərəfindən on ballıq sistem üzrə aparılıb, münsiflər heyətinin üzvü olan müəllimlər öz tələbələrinə səs verməyiblər. Bu gün əsas turda iştirak etmiş ifaçıların yekun konserti olacaq və müsabiqə qalibləri mükafatlandırılacaqlar.

Natəvan Qədimova çıxışının sonunda mədəniyyət və incəsənətimizə göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli çıxış edərək bildirib ki, müsabiqə keçirildiyi dövrdə Naxçıvan Muxtar Respublikasının Dövlət Televiziya və Radiosu ilə geniş işıqlandırılıb. Muxtar respublikanın rayonlarında keçirilən müsabiqənin mərhələlərindən hazırlanmış verilişlər geniş ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Bu verilişlər muğam sənətimizi, mahnı və təsniflərimizi geniş təbliğ etməklə yanaşı, istedadların tanıdılması baxımından da əhəmiyyətli olub.

Qeyd edilib ki, aprel ayından noyabr ayına qədər keçirilmiş və muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə kimi dəyərləndirilən “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016” muxtar respublikada yaşayan istedadlı şəxslərin aşkar edilməsinə, onların yaradıcılıq potensiallarının düzgün istiqamətləndirilməsinə, həmçinin milli musiqimizin təbliği və yaşadılmasına dəyərli töhfə olub.

Aparıcılar bildiriblər ki, “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi – 2016”nın qalibləri bir I yer, iki II yer və iki III yer olmaqla, üç yer üzrə müəyyənləşdirilib.

Qaliblər elan olunduqdan sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli diplom və mükafatları təqdim ediblər.

Birinci yerin qalibi 470 balla Yusif Hacıyev olub. Müəllimi Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudovdur. Müsabiqəyə Naxçıvan şəhərindən qatılan Yusif I dərəcəli diplom və pul mükafatı ilə təltif edilib.

İkinci yerin qalibi Səfər Cəfərov Babək rayonunun Nehrəm kəndindən müsabiqəyə qatılıb. O, 431 bal toplayıb. Müəllimi Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Hünər Əliyevdir.

İkinci yerin digər qalibi Elmar Qasımov Naxçıvan şəhərindən müsabiqəyə qatılıb. Müəllimi Azərbaycan Respublikasının Əməkdar artisti Vilayət İsmayılovdur.

Üçüncü yerin qalibi isə müsabiqənin yeganə qadın iştirakçısı Əsmər Hüseynova olub. Onun müəllimi isə Azərbaycan Respublikasının Əməkdar artisti Qurban Qasımovdur. 429 bal toplayan Əsmər müsabiqəyə Ordubad rayonundan qatılıb.

Üçüncü yerin daha bir qalibi İlham Məmmədov müsabiqəyə Kəngərli rayonunun Böyükdüz kəndindən qatılıb. O, 427 bal toplayıb. Müəllimi Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Hünər Əliyevdir.

Qaliblərə diplom və pul mükafatı verilib.

Müsabiqə müddətində ifaçılarla məşq aparan müəllimlərin də zəhməti təşkilatçılar tərəfindən qiymətləndirilib, onlar diplom və hədiyyələrə layiq görülüblər. Qeyd edək ki, müsabiqənin başqa iştirakçılarına da diplom və fəxri fərmanlar təqdim olunub.

Münsiflər heyətinin üzvlərinə müsabiqədə fəal iştiraklarına görə təşkilatçılar tərəfindən güllər təqdim edilib və ansamblın üzvləri diplomlarla təltif olunublar.

Sonra müsabiqənin yekun konserti olub. İlk olaraq Məhərrəm Quliyev, Rəşad Nəcəfov, Səfər Cəfərov və Elmar Qasımov “Mənim Azərbaycanım” mahnısını ifa ediblər.

Fuad Qədimovun, Əsmər Hüseynovanın, Yusif Hacıyevin ifa etdikləri “Gedirəm axı”, “Ay qız”, “A Leyli” Azərbaycan xalq mahnıları, Araz Cabbarov, Təyyar Mədətli və İlham Məmmədovun birgə ifa etdikləri “Qarabağ şikəstəsi”, başqa mahnı və təsniflər alqışlarla qarşılanıb.

Konsert müsabiqə iştirakçılarının ifa etdikləri “Naxçıvan” mahnısı ilə başa çatıb.

**Əli RZAYEV**

# Yeni stadionlar yeniyetmə və gənclərin futbola marağını artırıb

***Bu gün Naxçıvan Muxtar Respublikasında idmanın kütləvi hal alması, gənclərin bu sahəyə cəlbi və onların asudə vaxtlarının səmərəli təşkili üçün hər bir şərait yaradılıb. Bu da qazanılan uğurların sayını daha da artırmağa imkan verib. Hazırda regionun şəhər və rayonları ilə yanaşı, kəndlərində də idmanın inkişafı üçün mühüm addımlar atılır. Təbii ki, belə addımlar istedadlı gənclərin üzə çıxmasına, onların bu sahədə yüksək nəticələr əldə etməsinə və üçrəngli bayrağımızı beynəlxalq arenalarda dalğalandırmasına səbəb olur.***





İdmanın inkişafı infrastrukturun geniş, çoxşaxəli olmasından asılıdır. Yəni idman obyektləri, zalları, kompleksləri nə qədər çox olarsa, qazanılan uğurların sayı da bir o qədər çox olacaq. Naxçıvan bu baxımdan ölkədə ad qazanmış regiondur. Muxtar respublikamızın, demək olar ki, hər bölgəsində tikilən, yenidən bərpa olunan idman obyektlərinin qapıları bu gün sakinlərin üzünə açıqdır.

Yeni istifadəyə verilən idman obyektləri arasında futbol meydançalarını xüsusi qeyd etmək lazımdır. Bu stadionların kəndlərdə olması diqqəti daha çox cəlb edir. Xüsusilə yeni tikilən stadionların müasir standartlara cavab verməsi yeniyetmə və gənclərin futbola marağını birə-beş artırır. Bəs yeni istifadəyə verilən stadionlardan gənclər necə yararlanırlar?

İlk olaraq Şərur rayonunda istifadəyə verilən stadionlar barədə. Aralıq kəndində tikilən futbol meydançasının uzunluğu 96, eni isə 51 metrdir. Bu stadionun ot örtüyü xüsusi toxum vasitəsilə əmələ gətirilib. 156 tamaşaçı tutumu olan stadionda paltardəyişmə otaqları, hakim otağı idmançıların ixtiyarındadır. Hazırda bu meydançada 11, 12, 13 və 14 yaşlı uşaqların məşqləri keçirilir. Eyni zamanda gənclərin də ixtiyarında olan arenada kəndlərarası çempionat oyunları təşkil olunur.

Mahmudkənd stadionu da öz görüntüsü ilə kəndə gözəllik verir. Uzunluğu 106, eni 60 metr olan stadion 104 tamaşaçı tutumuna malikdir və burada gənclərin məşq keçmələri üçün hər bir şərait yaradılıb. Təsadüfi deyil ki, bu stadion kəndlərarası çempionat oyunlarına, eyni zamanda futbol üzrə muxtar respublika çempionatının bəzi oyunlarının keçirilməsinə və sahibliyi edir. Şərur Rayon Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov bizimlə söhbətində bildirdi ki, bu stadionların istifadəyə verilməsi rayonda futbola olan marağı xeyli artırıb, istedadlı gənclərin üzə çıxmasına imkan verib. Təsadüfi deyil ki, bu stadionların tikintisindən sonra gənclər mütəmadi olaraq rayonun futbol komandasının heyətinə cəlb olunurlar.

Şərur rayonunda istifadəyə verilən stadionlardan biri də Aşağı Yaycı kənd stadionudur. Meydançanın uzunluğu 96, eni isə 52 metrdir. 84 nəfərlik tutuma malik olan stadionun ot örtüyü də yenidən salınıb. Bu stadiondan kənd camaatı ilə yanaşı, qonşu kəndlərin də idmançıları yararlanırlar.

Rayonda son olaraq idmançıların ixtiyarına verilən stadion Arbatan kəndindədir. Stadion 120 tamaşaçı tutumuna malikdir. Uzunluğu 60, eni isə 40 metr olan meydançada rayon birinciliklərinin keçirilməsi nəzərdə tutulub.

Futbolçuların ixtiyarına verilən meydançalardan biri də Culfa rayonundakı Bənəniyar kənd stadionudur. Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümüd Həsənli deyir ki, stadion idmançıların ixtiyarına verildikdən sonra Bənəniyarla yanaşı, qonşu kəndlərin futbolçuları da meydançadan yararlanırlar. Həmçinin futbol meydançası məktəbə yaxın olduğundan şagirdlər də buradan istifadə edirlər. Rayonun futbol komandası stadion yenidən bərpa olunduqdan sonra məşqlərini və bəzi oyunlarını bu arenada keçirir.

Qeyd edək ki, təbii ot örtüyünə malik olan stadionun uzunluğu 90, eni 65 metrdir.

*Göründüyü kimi, idmanın inkişafı üçün muxtar respublikada şəhər və rayonlarla yanaşı, kəndlərdə də idman obyektləri yeniyetmə və gənclərin ixtiyarına verilib. Bunları qorumaq və idman obyektlərindən maksimum yararlanmaq isə hamımızın borcudur.*

✍ **Ceyhun MƏMMƏDOV**

## *İtmişdir*

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, ev 19-da yaşamış Gülməmmədov Teyyub Nəbi oğlunun adına olan 1629 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Şərifova Türkanə Əli qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Əliyeva Gözəl Gəncəli qızının adına olan JN-281$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 927